

# PROFESSOR HAMLET İSAXANLI: “MƏKTƏBLƏRDƏ DİN DƏRSİNİN KEÇİRİLMƏSİ DÜZGÜN DEYİL...”

*2019-cu il aprelin 30-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Azərbaycan təhsil portalı AzEdu.az-a açıqlamasında təhsil müəssisələrində din dərslərinin məcburi keçirilməsinə münasibət bildirmişdir.*

“Məktəblərdə ictimai elmlər, fəlsəfə və onların əsasları kimi fənlər tədris olunmalıdır. Belə dərslərin keçirilməsi daha doğrudur, nəinki din. Çünki din elm deyil. Vicdan, əxlaq və bu kimi mənəvi hisslər elmlə təhlil olunmur. Bunlar insanın öz daxili dünyasının məhsuludur”.

Bunu *AzEdu.az*-a açıqlamasında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı deyib.

Qeyd edək ki, 2019-2020-ci tədris ilindən IV-VIII sinif şagirdləri üçün dini biliklərin daha geniş şəkildə yer aldığı təkmilləşdirilmiş “Həyat bilgisi” dərsliklərinin tədris edilməsi nəzərdə tutulub.

Bu mövzu cəmiyyət tərəfindən birmənalı qarşılanmayıb və müxtəlif fikir ayrılıqlarına səbəb olur.

Hamlet İsaxanlı dini dərslərin keçirilməsini düzgün hesab etmədiyini deyir:

“Fəlsəfə fənninin daxilində dinə də xüsusi yer ayrılıb.Amma burada çox dərinliyinə varılmır.

Məcburi din dərsi keçmək əvəzinə, onun yerinə fəlsəfi istiqamətdə olan dərslər keçirilməlidir”.

*http://azedu.az/az/news/14178*

# PROFESSOR HAMLET ISAKHANLI COMMENTED ON TEACHING RELIGIOUS SUBJECTS AT EDUCATIONAL INSTITUTIONS

On April 30, 2019, Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, in his interview with AzEdu.az, Azerbaijan's Education Portal, expressed his attitude towards religious subjects taught in educational institutions in an enforced manner.

The complete material can be read through the following link:

*http://www.moderator.az/news/269003.html*